# Yaxşı aktyor və yazıq adam...

## Qocalar evində dünyadan köçən Fikrət Məmmədov həmkarlarını üzdü



"Fəryad" filmində canlandırdığı Aşot obrazı ilə məşhurlaşan aktyor Fikrət Məmmədov ötən gün uzun sürən xəstəlik ucbatından dünyasını dəyişdi. Ən təsirlisi isə onun tək-tənha qocalar evində dünyadan köçməyi oldu. Fikrət Məmmədov kinomuz üçün çox maraqlı aktyor idi, amma təəssüf ki, az istifadə olundu. Biri-birinin ardınca maraqlı obrazlarından sonra sənətdən ayrı düşdü. 25 illik fasilədən sonra sənətə geri döndü, ancaq gecikmişdi... Böyük bir nəslin davamçısı olan Fikrət Məmmədov səfil şəkildə, kimsəsiz, astma xəstəliyi ilə mübarizə apararaq qocalar evində həyatla vidalaşdı.

Fikrət Məmmədovu kinostudiyada hər zaman Fiko deyə çağırırdılar. O, "Axırıncı reys", "Bağlı qapı", "Bayquş gələndə", "Cin mikrorayonda", "Çarə", "Doğma sahillər", "Əlaqə", "Fəryad", "Fırıldaqçı", "Gözbağlıcı", "Gümüşgöl əfsanəsi", "Güzgü", "Hədiyyə", "İbrət dərsi" və başqa filmlərdə müxtəlif obrazlar canlandırıb. Aktyor "Fəryad" filmindəki Aşot obrazı ilə yaddaşlarda iz qoyub.

*Həmkarları bizimlə söhbətində 65 yaşında həyatla vidalaşan mərhum aktyorun itkisinin Azərbaycan mədəniyyəti üçün çox ağır olduğunu bildirdilər.*

*Rejissor Namiq Ağayev deyir ki, Fikrət Məmmədov kreativ aktyor idi:* "Biz onunla həm dost, həm də iş yoldaşı olmuşuq. Fikrət bu həyatda çox əzab çəkdi, ömrünün son 5 ilini demək olar ki, "can" verdi. O, filmə dəvət alan kimi "dirilirdi". Onu film yaşadırdı, amma son illərində film təklifləri alsa da qəbul etmirdi. Fikrət beynəlxalq səviyyəli aktyor idi, hər mənada baxışı, siması, oyun tərzi bunu təsdiq edirdi. Bəlkə də pandemiya olmasaydı və onun yaradıcılığı bu qədər dayanmasaydı, indi yaşayardı. Allah rəhmət etsin".

**Rejissor Kamran Şahmərdan onu professional aktyor kimi qiymətləndirir:** "O, Ümumrusiya Dövlət Kinematoqrafiya İnstitutunda təhsil almışdı və Bakıya qayıdanda dövrün ən məşhur filmlərinə çəkildi. Qısa müddətdə tanınan aktyor kimi tarixə düşdü. Tam səmimi deyim ki, Fikrət kimi aktyor yetişdirmək üçün ən azı 30 il lazımdır. Fikrət yaxşı aktyor idi, mən deyərdim ki, hətta böyük aktyor idi, amma yazıq insan idi. Evsiz-eşiksiz qaldı və qocalar evində dünyadan köçdü. Onu yaşadan sənət idi. Mən ölkədən kənarda yaşadığım üçün Fikrətlə çox gec-gec görüşürdük. 2 il bundan əvvəl "YARAT" Müasir İncəsənət Məkanında 3-cü M.A.P. Beynəlxalq Teatr Festivalı çərçivəsində mən onunla birgə işlədim və ona C.Məmmədquluzadənin "Dəli yığıncağı" əsərində səhnələşdirdiyim tamaşada rol verdim. Rejissor kimi onun işindən zövq aldım. Allah rəhmət etsin".

**Teatrşünas Xəyalə Rəis Fikrət Məmmədovun sonuncu dəfə onunla danışdığını deyir:** "Bir ay bundan öncə Fikrət müəllimin əhvalını soruşmaq üçün mesaj yazmışdım. Adətən bir neçə dəqiqədən sonra mesaja cavab yazan insan bir həftə keçsə də mesajımı cavabsız qoymuşdu. Bu ona xas bir xüsusiyyət deyildi. Aktyorla əlaqə saxladıqda isə artıq mesajlara cavab vermək taqətinin olmadığını bildirdi. Özünü narahat hiss etdiyini deyirdi. 65 yaşının olduğunu xatırladır, günü-gündən xəstəliyin onu daha çox izlədiyini və vəziyyətinin ağır olduğunu gizlətmirdi. Astması vardı, bunun üçün çətin nəfəs alırdı. Mənimlə danışanda belə fikirlərini güclə ifadə edirdi. Deyirdi ki, heç kim onun səhhəti ilə maraqlanmır, yaşamaq istəyirdi. Nəfəs ala bilmirdi, danışdıqca boğulurdu. Birtəhər yaşamağa çalışdığını deyirdi. O halı ilə belə filmə, serial çəkilmək, obraz canlandırmaq eşqi ilə yaşayırdı. Ümidini üzmürdü. Elə sonuncu müsahibəsi də mənimlə oldu. Dedim ki, bu halınızla bağlı material hazırlayacam, müəyyən qurumlara müraciət edəcəm. "Dediklərimi yaz, amma heç kimə müraciət etmə"- dedi. Sanki son günləri olduğunu özü də hiss edirdi".

*Xəyalə Rəis aktyoru 3 il bundan öncə "Ol" teatrında gördükdə təəccübləndiyini bildirir. Deyir ki, 25 ildən sonra yenidən səhnəyə qayıtması hər kəsdə bir təəccüb yaratmışdı:* "Aktyorun "Ol" teatrındakı performansı diqqətimi çəkmişdi. Nəhayət, 2 ildən sonra "Ol" filmində əsas qəhrəman olaraq qarşımıza çıxdı. "YARAT" Müasir İncəsənət Məkanında 3-cü M.A.P. Beynəlxalq Teatr Festivalında Kamran Şahmərdanın rejissoru olduğu "Dəli yığıncağı" tamaşasındakı obrazı ilə səhnəyə geri dönüşünü rəsmən də elan etmiş olmuşdu. İlahi, necə sevinirdi... Bir söz var, deyir ki, "İnsan nə edirsə özünə edir". Doğrudan da elədir. Fikrət müəllim çox tanınmış nəslin varisi, nümayəndəsi idi. Dövrünün tanınmış qəhrəmanı öz səhvi ucbatından bu vəziyyətə düşdü. Onun ölümü məni çox kədərləndirdi, məyus etdi. Uşaq kimi insanlar tanıdım bu sənətdə. Səhnə, sənət sevgisi ilə qovrulan, onun eşqi ilə yaşayan uşaq. Fikrət Məmmədov da elə bir uşaq idi. Həyatı etdiyi yanlışlıqlarla dolu olan və hər zaman onun peşmanlığını çəkən bir uşaq. Onu heç zaman unutmayacam".

**Televiziya, prodüseri Vasif Ayan Fikrət Məmmədovla xatirəsinin çox olduğunu vurğulayır:** "Onunla bağlı xatirələrimin bir qismini mütəmadi olaraq sosial şəbəkədə paylaşırdım. Biz dostlar ona Fiko deyə müraciət edirdik. Onunla bəzən işdən sonra mütəmadi olaraq görüşüb, söhbət edirdim. Çox gözəl aktyor idi... Allah məkanını cənət etsin. Onun itkisi tək bizim üçün yox, kino sahəsi üçün ağırdır".

**Turan Etibaroğlu**